Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə 3-cü "Mobillik qrantı" (Qrant № EİF-Mob-3-2013-6(12)-14/14/5) çərçivəsində AMEA-nın Rəyasət Heyyətinin nəzdindəki Xarici Dillər Kafedrasının professoru, filologiya üzrə elmlər doktoru ***Səadət Məmməd qızı Zeynalovanın*** biraylıq təcrübə keçmək üçün AFR-in Berlin şəhərindəki Vilhelm von Humboldt Universitetinin Alman dili və Linqvistika İnstitutu və Universal Tədqiqatlar Mərkəzinə (ZAS) ezamiyyəti haqqında

# H E S A B A T

Mən, *Səadət Məmməd qızı Zeynalova*, 2014-cü ilin 10 mart-10 aprel tarixlərində professor Bernd Pompino-Marschallın dəvəti ilə Almaniya Federativ Respublikasının Berlin şəhərindəki Vilhelm von Humboldt Universitetinin Alman dili və Linqvistika İnstitutu və Universal Tədqiqatlar Mərkəzinə "Alman və Azərbaycan dillərində determinantlar və onların mətn düzəlməsində rolu" layihəsi üzrə təcrübə keçmək üçün ezam olunmuşdum.

Səfər zamanı Alman dili və Linqvistika İnstitutunun direktor müavini, Alman dilinin Fonetika və Fonologiya kafedrasının müdiri, Universal Tədqiqatlar Mərkəzinin şöbə müdiri, professor Bernd Pompino-Marschall ilə görüşlər keçirmiş, Azərbaycan və alman dillərindəki müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasına aid olan determinantların müxtəlif mövqelərdən asılı olaraq müasir eksperimental-fonetik təhlili, müqayisə və tutuşdurma metodları əsasında əldə edilmiş nəticələr haqqında müzakirələr aparılmışdır. Tədqiqata cəlb olunmuş materiallar əsasında müqayisə olunan dillərin fərqli və oxşar xüsusiyyətləri aşkar olunmuşdur. Konkret olaraq Universal Tədqiqatlar Mərkəzində akustik analizə və statistik qiymətləndirilməyə dair növbəti eksperimentlər aparılmış və mövcud müasir proqramlar vasitəsilə ilkin qiymətləndirilmələrə görə mühüm nəticələr əldə edilmişdir. Bu nəticələr əsasında məqalə tərtib edilmiş və alman jurnalında dərc olunması nəzərdə tutulmuşdur. Aparılan tədqiqatların bəzi nəticələri 2015-ci ildə Çin Xalq Respublikasının Şanxay səhərindəki Germanistlərin XIII Dünya Konqresinə geniş məruzə şəklində təqdim olunacaqdır.

Ezamiyyət zamanı Vilhelm von Humboldt Universitetində və Universal Tədqiqatlar Mərkəzinin əməkdaşlarının Dr. Susanne Fuchs və Jörg Dreyerin

apardıqları yeni fonetik eksperimental tədqiqatların gedişi ilə tanış olmuş və adları çəkilən təşkilatlarda keçirilmiş iki workshopda iştirak edilmişdir (təstiqedici foto-materiallar əlavə olunur). Birinci tədbir "Das mehrsprachige Klassenzimmer: Wie viel Deutsch braucht ein Berliner Schulkind?"- "Multilingual auditorium" kitabının təqdimatına həsr edilmişdir (Professor, Doktor Manfred Krifka). İkinci workshop isə Ludviq Maksimillian adına Münxen Universitetinin Fonetika və Dil Kommunikasiya İnstitutunun əməkdaşı Dr. Phil Hoolenin "Qıtlaq və ağız boşluğu nahiyəsinə aid eksperimental-fonetik tədqiqat" məruzəsinin müzakirəsi ilə bağlı idi.

Bununla yanaşı, Universal Tədqiqatlar Mərkəzinin əməkdaşları Dr.Natalia Qaqarina və Dr. Kerstin Schwabe ilə görüşlər keçirilmiş, birgə tədqiqat işlərinin aparılması haqqında müzakirələr aparılmış və yeni elmi əlaqələr yaradılmışdır. Beləliklə, təcrübə keçmənin nəticəsində:

- mövzu ilə bağlı Web of Knowledge/Science, Scopus, Google Scholar elektron axtarış platformalarından istifadə edilərək ədəbiyyat materialları toplanılmış, təhlil edilmiş və icmalın yazılması üçün hazırlanmışdır;
- kontekstdən asılı olaraq artiklin işlənib-işlənməməsinin funksional-semantik xüsusiyyətləri, oxşar və fərqli əlamətləri aşkar edilmişdir;
- müqayisə olunan dillərdə artikl və artikl sözlərin funksiyaları kontrastiv aspektə tədqiq edilmişdir;
- araşdırılan hadisələrin akustik parametrlərini üzə çıxarmaq məqsədilə seçilmiş dil materialının eksperimental-fonetik təhlili aparılmış və parametrlərin ölçüləri təyin edilmişdir.

Görülən işlərin nəticəsi olaraq Vilhelm von Humboldt Universitetinin Alman dili və Linqvistika İnstitutu tərəfindən mənə Sertifikat Sənədi təqdim edilmişdir və Elmin İnkişafı Fondunun icraçı direktoruna cənab Dr. Elçin Babayevə rəsmi məktub yollanılmışdır.

18 aprel 2014-cü il **Səadət Məmməd qızı Zeynalova**